# Maskalar yırtılır, həqiqətlər üzə çıxır

## Dünya erməniliyinin əsas ruporuna çevrilən "Azadlıq radiosu" və "Amerikanın səsi", eləcə də USAID layiq olduqları cəzaları alırlar

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) işində genişmiqyaslı fırıldaqçılıq sxemləri mövcud olub. Bu barədə "Fox News" telekanalına müsahibəsində ABŞ Prezidenti Donald Tramp bildirib. "Çox gözəl səslənir - ABŞ Beynəlxalq İnkişaf Agentliyi. Gözəl deyilmi? Amma bu tam bir fırıldaqçılıqdır", - Vaşinqton administrasiyasının başçısı təfərrüatları açıqlamada bildirib.**

Tramp vurğulayıb ki, ABŞ Demokrat Partiyası bu pozuntulara maraq göstərmir və onun administrasiyasının agentliyin işini dayandırmağa yönəlmiş tədbirlərinə qarşı çıxır. "Demokratlar daim deyirlər: "Konstitusiyamız pozulub". Onların heç vaxt danışmadıqları yeganə şey milyardlarla dolların hara yoxa çıxmasıdır. Onlar axtarmaq istəmirlər", - Amerika lideri qeyd edib.

Göründüyü kimi, USAID-in fəaliyyəti ilə bağlı ABŞ-nin yeni administrasiyasında kifayət qədər tənqidi yanaşma var. Son bir aya nəzər yetirsək görərik ki, təşkilatın fəaliyyəti ilə bağlı Donald Tramp administrasiyası addımlar atır. Yeni hökumət USAID-i bir çox məsələlərdə ittiham edir.

Qeyd edək ki, fevral ayına qədər USAID-in 4765 işçisinin təxminən 90 faizi inzibati məzuniyyətə göndərilib, Ronald Reyqan binasındakı mənzil-qərargahı isə bağlanıb.

"Amerikanın səsi" və "Azadlıq" radiolarının isə əsl üzünü Azərbaycan xalqı Vətən müharibəsində əldə etdiyimiz Zəfərdən sonra çox yaxşı gördü. Hər iki KİV sanki ölkəmizə qarşı səlib yürüşünə çıxmışdı. Xankəndidə Azərbaycan bayrağı dalğalandıqdan sonra ölkəmizə qarşı antiazərbaycançı şəbəkənin təxribatları daha da artdı. Öz gücünə suverenliyini, ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycana qarşı çirkin vasitələrlə təsir göstərmək istəyən korrupsiyalaşmış bəzi beynəlxalq təşkilatlar iyrənc əməllərinə bu media resurslarını da qoşdular. Bütün dövrlərdə erməni lobbisinin maraqlarına xidmət edən "Azadlıq radiosu" feyk informasiyaları paylaşmaqla Azərbaycanın qazandığı qələbəni, nüfuzunu həm beynəlxalq ictimaiyyətdə, həm də müxtəlif ölkələrin cəmiyyətlərində ləkələməyə çalışdı.

Ümumiyyətlə, müəyyən xarici qüvvələrin Azərbaycanın inkişafına qısqanclıqla yanaşması yeni məsələ deyil. Bu dairələr, daha dəqiq desək, xaricdəki antiazərbaycançı şəbəkə hər zaman ölkəmizin imicinə zərbə vurmağa çalışıb. Onların ağ yalanlarını, iftira dolu ittihamlarını çox eşitmişik. Amma özləri də yaxşı bilirlər ki, bütün cəhdləri bumeranq effekti verib.

Azərbaycanda baş verən hər hansısa müsbət hadisəyə, keçirilən mühüm tədbirin əhəmiyyətinə, hətta ölkəmizin qazandığı istənilən uğura belə kölgə salmağa çalışan "Azadlıq" və "Amerikanın səsi" heç zaman ölkəmizə qarşı qarayaxmalarından əl çəkməyiblər. Əslində, Azərbaycanın haqq səsini "təcavüz" sayan, Şuşada, Xankəndidə bayrağımızın dalğalanmasına etiraz edən bu "media orqanları"ndan ölkəmizlə bağlı normal xəbər gözləmək də sadəlövhlük olardı.

Xatırladaq ki, "Azad Avropa/Azadlıq Radiosu" Media Korporasiyası ABŞ hökumətindən maliyyələşdirmənin dayandırılmasına dair sənədin alınmasını təsdiqləyib. Bu barədə korporasiyanın prezidenti Stiven Kapus müvafiq bəyanat yayıb.

ABŞ Prezidenti Donald Tramp martın 14-də ABŞ hökumətinin Qlobal Media Agentliyinin və digər hökumət strukturlarının fəaliyyət dairəsinin əhəmiyyətli dərəcədə azaldılması haqqında sərəncam imzalayıb. Agentlik "Azadlıq radiosu" media korporasiyasına və "Amerikanın səsi" radiostansiyasına nəzarət edir.

Agentliyin məktubunda "Azadlıq radiosu"nu maliyyələşdirən ABŞ Konqresinin təsdiq etdiyi qrantın dayandırılmasından bəhs edilib.

Hələ fevral ayında Hökumətin Effektivliyi Ofisinə rəhbərlik edən İlon Mask ABŞ hökumətini "Azadlıq radiosu" media korporasiyası və "Amerikanın səsi" radiostansiyasını maliyyələşdirməyi dayandırmağa çağırıb.

1970-ci illərin əvvəllərinə qədər "Azadlıq radiosu" Mərkəzi Kəşfiyyat İdarəsinin büdcəsi hesabına maliyyələşib, çünki Konqresə özəl təşkilatları maliyyələşdirməsi qanunla qadağan edilib. Bu radiostansiyanın MKİ ilə əlaqəsi üzə çıxandan sonra qadağa götürülüb və maliyyə birbaşa ABŞ Konqresi tərəfindən ayrılmağa başlayıb.

"Soyuq müharibə" dövründə ABŞ-nin ideoloji mübarizəsində təbliğat vasitəsi kimi istifadə olunan "Azadlıq Radiosu" və "Amerikanın səsi" uzun illər təyinatları üzrə yox, başqa ölkələrin daxili işlərinə müdaxilə və digər məqsədlər üçün istifadə edilib.

Beləliklə, həm USAID, həm də adıçəkilən "Azadlıq Radiosu" və "Amerikanın səsi" layiq olduqları cəzanı çəkirlər. Nəticə etibarilə USAID-in Azərbaycandakı fəaliyyətinin dayandırılması ilə bağlı qərar bilavasitə milli maraqların və təhlükəsizliyin təmin olunması, xarici qüvvələrin dövlətin daxili işlərinə qarışmaq cəhdlərinin qarşısının alınması üçün labüd addım idi. Donald Tramp administrasiyasının bu qurumlara layiq olduqları yeri göstərməsi də Azərbaycanın qəbul etdiyi qərarda haqlı olduğunu bir daha sübuta yetirmiş oldu.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 20 mart (№ 61).- S.6.